Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 06.04.2023-cü il tarixli qərarı ilə təsdiq olunmuşdur.

**“Vəkil orderi və Elektron vəkil orderi və ondan istifadə qaydası haqqında”**

# Ə S A S N A M Ə

## 1. Ümumi müddəalar

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsini, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinin 8.2-ci bəndinin 16-cı yarımbəndini, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106.1.2-ci maddəsini rəhbər tutaraq Vəkillər Kollegiyasının üzvləri tərəfindən istifadə olunan vəkil orderi və order markasının forması, uçotu, əldə edilməsi və istifadəsi qaydasını müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti “Vəkil orderi və ondan istifadə qaydası haqqında” bu Əsasnaməni (bundan sonra – Əsasnamə) qəbul edir.

## 2. Əsas anlayışlar

2.1. **Azərbaycan Respublikası Vəkillər Kollegiyası** (bundan sonra – Vəkillər Kollegiyası) - Qeyri-dövlət, müstəqil, özünü idarə edən, bütün vəkillərin daxil olduğu və “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu əsasında yaradılmış hüquqi şəxs.

2.2. **Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti** (bundan sonra – Rəyasət Heyəti) – Vəkillər Kollegiyasının icra orqanı.

2.3. **Vəkil** – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü.

2.4. **Vəkil Qurumu** - Vəkil (Vəkillər) tərəfindən yaradılmış, bu qurumda fəaliyyət göstərən Vəkillər, eləcə də Vəkil və Müvəkkil arasında müqavilə münasibətləri əlaqələndirən hüquqi şəxs.

2.5. **Fərdi qaydada fəaliyyət göstərən vəkil** – Vəkil Qurumunun üzvü olmayan Vəkil. Bu Əsasnamənin məqsədləri üçün Vəkil Qurumunun və ya onun rəhbərinin hüquq və vəzifələri Fərdi qaydada fəaliyyət göstərən vəkilə də aiddir.

2.6. **Müqavilə** - Müvəkkilin hüquqlarının müdafiə edilməsi müraciət edən şəxslə bağlanan hüquqi yardım göstərilməsi haqqında müqavilə. Müqavilə kağız daşıyıcıda və ya Rəyasət Heyətinin təsdiq etdiyi formada “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunun tələblərinə əsasən və ya qanunvericiliklə nəzərdə tutulmuş digər analoq imzalama metodlarından istifadə edilməklə elektron qaydada bağlana bilər.

2.7. **Müvəkkil** –hüquqi yardım göstərilən şəxs.

**2.8.** **Müraciət edən şəxs** – Müvəkkili təmsil etmək hüququna malik olan və Müqaviləni bağlayan fiziki şəxs.

2.9. **Vəkil orderi** (bundan sonra - Order) – dövlət hesabına göstərilən hüquqi yardıma görə təhqiqat, istintaq, prokurorluq orqanlarının və ya məhkəmənin müvafiq qərarı və ya müraciət edən şəxslə vəkil (vəkil qurumu) arasında bağlanan Müqavilə əsasında Vəkilə verilən tapşırıq üzrə yalnız bir istintaq (təhqiqat) orqanında və ya bir

məhkəmə instansiyasında təmsilçilik və hüquqi yardımın göstərilməsi, inzibati tapşırıq üzrə Müqavilədə göstərilən idarə və təşkilatlarda təmsilçilik və qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətlərin verilməsini təsdiq edən xüsusi müəyyən edilmiş sənəddir (Əsasnamənin 1 nömrəli Əlavəsində qeyd edilən formaya uyğun nəşr edilir).

2.10. **Elektron Vəkil Orderi** – elektron qaydada ("Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunun tələblərinə əsasən və ya qanunvericiliklə nəzərdə tutulmuş digər analoq imzalama metodlarından istifadə edilməklə) hazırlanaraq imzalanan Müqavilə əsasında elektron qaydada generasiya edilən Order (Əsasnamənin 2 nömrəli Əlavəsində qeyd edilən formaya uyğun yaradılır). Elektron Vəkil Orderi və Order eyni hüquqi statusa malikdir[1].

2.11. **Order Markası** (Order xərci)– məbləği, forması və ölçüləri Rəyasət Heyəti tərəfindən müəyyən olunan və Orderin üzərində təsvirini tapan, Orderin həqiqiliyini əks etdirən, unikal nömrəli marka və ya holoqramdır (Əsasnamənin 3 nömrəli Əlavəsində qeyd edilən formaya uyğun nəşr edilir). Order Markasının nömrəsi Orderin nömrəsi hesab edilir. Order Markasının qiyməti Rəyasət Heyəti tərəfindən təsdiq edilir və order xərci hesab edilir. Elektron Vəkil Orderinin üzərinə marka təsviri əksini tapmır. Elektron qaydada hüquqi yardım haqqında müqavilə bağlandığı anda order xərci tutularaq Rəyasət Heyətinin xüsusi bank hesabına ödənilir və Elektron Order üçün unikal nömrə generasiya olunur. Bu nömrə Order Markasını əvəz edir və ona bərabər tutulur.

### 3. Orderin və Order Markasının hazırlanması, saxlanılması və uçotu qaydası

3.1. Order Vəkil Qurumu tərəfindən və onun hesabına nəşriyyat üsulu ilə çap edilir.
3.2. Order Markası Rəyasət Heyəti tərəfindən sifariş edilir və xüsusi ödəniş əsasında bu Əsasnamənin 3.7-ci maddəsində qeyd edilən qaydada uçotu aparılmaqla Vəkil Qurumlarına və Fərdi qaydada fəaliyyət göstərən Vəkillərə təqdim edilir.
3.3. Unikal sıra nömrəsindən başqa, Order Markasının yuxarı sağ küncündə onun cütündən birində "1", digərində "2" rəqəmi əks olunur. "1" rəqəmi əks olunmuş order markası aidiyyəti təşkilata təqdim olunan orderin, "2" rəqəmi isə Vəkil Qurumunda (Fərdi qaydada fəaliyyət göstərən vəkildə) saxlanılan orderin üzərinə yapışdırılır.
3.4. İctimaiyyətin və aidiyyəti təşkilatların məlumatlandırılması məqsədilə Orderin, Elektron Orderin və Order Markasının forması və təsviri Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində yerləşdirilir.
3.5. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən Orderdə Order Markasından istifadə olunmur.
3.6. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən order çəhrayı (RGB kodu üzrə: 255,182,193) rəngdə, Order Markası yapışdırılan Orderlər isə yaşıl (RGB kodu üzrə: 0,250,154) rəngdə sifariş olunur.
3.7. Order Markası onların nəzarətsiz istifadəsinə, zədəsinə və oğurlanmasına mane olan şəraitdə, Rəyasət Heyətinin inzibati binasında, bunun üçün ayrılmış seyfdə saxlanılır. Order Markasının saxlanması, Vəkil Qurumlarına (Fərdi qaydada fəaliyyət göstərən Vəkilə) təhvil verilməsi və Order Markalarının "Order Markalarının təhvil verilməsinin uçotu jurnalı"nın (bundan sonra - Uçot jurnalı) aparılması (Əlavə 4) Rəyasət Heyətinin bu işə təhkim olunmuş əməkdaşı (bundan sonra - Məsul şəxs) tərəfindən həyata keçirilir. Saxlanc üçün seyfin açarlarının bir nüsxəsi Məsul şəxsdə, digər nüsxəsi isə Rəyasət Heyətinin sədrində saxlanılır. Rəyasət Heyətinin sədrinin tapşırığına əsasən, istənilən vaxt Məsul şəxsin fəaliyyəti təftiş oluna bilər.

### 4. Order Markasının əldə olunması

4.1. Order Markaları mərkəzləşdirilmiş qaydada Vəkil Qurumları tərəfindən Rəyasət Heyətindən verdikləri sifariş əsasında dəqiq uçotu aparılmaqla əldə olunur.
4.2. Order markasına görə ödəniş məbləği və ona dəyişiklik məsələləri Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur və Müqavilə qiymətinə daxildir.
4.3. Order Markası Vəkil Qurumunun rəhbərinə, o hər hansı səbəbdən işdə olmadığı dövrdə qanunla müəyyən olunmuş qaydada (etibarnamə və ya əmr əsasında) onun vəzifələrini icra edən Vəkilə və Fərdi qaydada fəaliyyət

[1] Rəyasət Heyətinin qərarına əsasən tam şəkildə Elektron Vəkil Orderindən istifadə barədə qərar qəbul edilənə qədər Vəkil Orderi və Elektron Vəkil Orderindən paralel qaydada istifadə edilə bilər.

göstərən Vəkilə şəxsən Rəyasət Heyətinin inzibati binasında Məsul şəxs tərəfindən təqdim edilməklə həyata keçirilir.

4.4. Order Markasının əldə edilməsi Vəkil Qurumu (Fərdi qaydada fəaliyyət göstərən Vəkil) tərəfindən Order Markasının sayına uyğun olaraq Vəkillər Kollegiyasının müvafiq bank hesabına ödənilmiş məbləği təsdiq edən ödəniş sənədi Məsul şəxsə təqdim edildikdən və bu barədə Uçot jurnalında qeydlər aparılaraq imzalandıqdan sonra həyata keçirilir.

4.5. Rəyasət Heyəti 45 təqvim günü əvvəlcədən xəbərdar etməklə Order Markalarının vizual xüsusiyyətlərini dəyişdirə bilər. Rəyasət Heyətinin qərarının elan edildiyi gündən sonra bağlanan Müqavilələr əsasında verilən Orderlərə köhnə Order Markalarının yapışdırılmasına yol verilmir.

## 5. Order Markasına görə ödənilən məbləğlərin istifadəsi təyinatı

5.1. Order Markasına görə ödənilən məbləğlərdən formalaşan maliyyə mənbəyi Vəkilliyin İnkişaf Fondu hesab edilir və həmin məbləğin istifadə təyinatı aşağıdakı kimidir:

- Dövlət hesabına göstərilən hüquqi yardım (vəkilin iştirakı məcburi hesab olunan hallar) istisna olmaqla, Vəkilin qonorarını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə ödənişsiz hüquqi yardımın göstərilməsi;
- Vəkilliyə qəbul üzrə icbari təlimlərin, vəkillərin peşə hazırlığı və ixtisaslarının artırılması üzrə davamlı tədris tədbirlərinin təşkili;
- Maddi dəstəyə ehtiyacı olan Vəkillərin təminatının yaxşılaşdırılması;
- Vəkillik fəaliyyətinin həyata keçirilməsində yaranan çətinliklər zamanı Vəkillərin üzvlük haqlarının qarşılanması;
- Müalicəyə ehtiyacı olan Vəkillərin müraciəti əsasında onların sağlamlığının müdafiəsi;
- İctimai-əhəmiyyətli təşəbbüslərə və fondlara dəstək verilməsi;
- Vəkilliyin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, o cümlədən Vəkillər Kollegiyasının istifadəsində (mülkiyyətində) olan binaların təmiri, Vəkil Qurumunun fəaliyyəti üçün inzibati binanın təmir-tikinti işləri, xidmət və malların satın alınması, zəruri avadanlıqların (kompüter, printer, mebel, digər alət və avadanlıqların) satın alınması;
- Maarifləndirmə, internet resurslarında və kütləvi informasiya vasitələrində (KİV) vəkilliyin inkişafı ilə bağlı məlumatlandırma işlərinin aparılması, Azərbaycan vəkilliyinin təbliği və onun nüfuzunun artırılması ilə bağlı müxtəlif yerli və beynəlxalq tədbirlərin, o cümlədən idman və digər mədəni-sosial tədbirlərin təşkil edilməsi;
- Hüquqşünas tələbə təşkilatlarının fəaliyyətinə dəstək, onlara maddi-texniki yardımın göstərilməsi, eyni zamanda, Rəyasət Heyətinin qərarına əsasən, fərqlənən hüquqşünas tələbələrə təqaüdlərin verilməsi;
- Vəkillər Kollegiyasının təsisçisi olduğu təşkilatlara dəstək;
- Order Markasının, metodiki və digər çap vəsaitlərinin nəşr olunması;
- Rəyasət Heyətinin məqsədəmüvafiq hesab etdiyi digər məsələlərin həll edilməsi.

## 6. Orderin və Order Markasının istifadəsi

6.1. Order Vəkil Qurumunda və Vəkildə qalmaq şərtilə 2 (iki) nüsxədə tərtib olunmaqla Vəkil Qurumunun rəhbərinin imza və möhürü ilə təsdiqlənir. Vəkil Qurumunda qalan Orderin nüsxəsi onun surətinin çıxarılması yolu ilə Vəkil Qurumunun rəhbəri tərəfindən imza və möhürlə təsdiqlənir.

6.2. Orderdə qeyd olunan tapşırığın məzmunu göstərilməklə onların qeydiyyatı Vəkil Qurumunun rəhbəri tərəfindən təmin edilir.

6.3. Orderin əsli ilə doğruluğunu təsdiq edən surəti Vəkil Qurumunun möhürü ilə təsdiqlənir.

6.4. Order Markasının satılması, hədiyyə verilməsi, başqa Vəkil Qurumuna və ya Vəkilə verilməsi qadağandır.

6.5. Elektron Orderin etibarlığı onun üzərində olan QR kod vasitəsilə təsdiq edilir.

6.6. Elektron Orderlər Vəkillər Kollegiyasının internet səhifəsində yaradılmış Vəkil kabinetində saxlanılır. Elektron Order çap oluna və ya elektron qaydada müvafiq qurumlara təqdim edilə bilər.

6.7. Elektron sənəd formasında tərtib edilən Elektron orderlərin saxlanmasına və qorunmasına, məlumat bazası kimi formalaşdırılmasına, qanunsuz yayılmamasına nəzarət Vəkillər Kollegiyası tərəfindən həyata keçirilir və bunun üçün zəruri mühafizə tədbirlərinin və digər təşkilati-texniki işlərin görülməsi Vəkillər Kollegiyası tərəfindən təmin edilir. Vəkillər Kollegiyası Vəkil sirri təşkil edən məlumatların yayılmaması şərti ilə formalaşmış bu məlumat bazasından müxtəlif statistik məlumatların əldə edilməsi və hesabatların hazırlanması üçün istifadə edə bilər.

## 7. İstifadə edilməmiş və vizual cəhətdən köhnəlmiş Order Markalarının qaytarılması və onların məhv edilməsi

7.1. İstifadə edilməmiş, vizual cəhətdən köhnəlmiş Order Markası (bundan sonra - Qaytarılmalı Order Markası) Rəyasət Heyətinə geri qaytarılır və “Order Markalarının qaytarılması barədə Akt”la (5 saylı Əlavə) rəsmiləşdirilir. Akt Məsul Şəxs və Qaytarılmalı Order və Order Markalarını qaytaran şəxs tərəfindən imzalanmaqla təsdiq edilir.

7.2. Qaytarılmalı Order Markasına görə ödənilmiş məbləğ geri tələb oluna bilməz.

7.3. Qaytarılmalı Order Markasının sayına uyğun yeni Order Markası ilə əvəz edilir.

7.4. Qaytarılmalı Order Markaları Vəkil Qurumunun rəhbəri (və ya müvafiq əmr əsasında onu əvəz edən şəxs), və ya Fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən şəxsən qaytarılır.

7.5. Qaytarılmış Order Markaları məhv edilir. Qaytarılmış Order Markalarının məhv edilməsi Rəyasət Heyətinin sədri tərəfindən müəyyən edilmiş şəxslərin iştirakı ilə müvafiq aktla rəsmiləşdirilərək həyata keçirilir.

## 8. Yekun müddəalar

8.1. Rəyasət Heyəti 2 (iki) ay ərzində Elektron Order nümunələrini məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və digər dövlət və qeyri-dövlət orqanlarına göndərməklə məlumatlandırır, həmçinin nümunələr barədə Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində məlumat verir.

Qeyd : Bu Əsasnaməyə edilən dəyişikliklər 06 aprel 2023-cü il tarixdən qüvvəyə minir və Elektron Order tam şəkildə tətbiq edilənədək Order və Order Markalarla birlikdə paralel surətdə istifadə olunur.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Vəkil orderi və Order Markası haqqında" Əsasnaməyə
Əlavə 1

**Orderinin standart forması**

Order yaşıl (RGB kodu üzrə: 0,250,154) rəngdə, A4 (210x297mm) formatlı qoşa səhifəli (ikinci səhifə nüsxə olmaqla) sifariş olunur.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

Order markası
№ 0000000

VƏKİL ORDERİ

**Tarixi: 00.00.0000**

Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________________
Adı, ünvanı, telefon nömrəsi (soyadı, adı və atasının adı)
____________________

Müqavilənin (qərarın) tarixi: ____________ Müqavilənin nömrəsi: ____________

Vəkil ____________________
(Soyadı, adı, atasının adı və vəkil vəsiqəsinin nömrəsi)

Hüquqi yardım göstərilən şəxs: ____________________
(Soyadı, adı və atasının adı/Hüquqi şəxsin adı və VÖEN-i)

Tapşırığın məzmunu və işin mərhələsi: ____________________
____________________
____________________

Tapşırığın yerinə yetirildiyi təşkilat: ____________________
____________________

Vəkilin imzası: ____________________

Vəkil qurumunun rəhbərinin imzası və möhürü (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş “Vəkil orderi və Order Markası haqqında” Əsasnaməyə

Əlavə 2

***Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 23.04.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.***

**AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI**

**ELEKTRON VƏKİL ORDERİ № _______________ (Marka nömrə avtomatik verilir)**

**Tarix:___________**

**Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil) :** ____________________________________________
____________________________________________________________________________

**Müqavilənin tarixi:** _____________**(müqavilənin tarixini gətirir)** **Müqavilə №** ________ **(müqavilə nömrəsi gətirir)**

**Vəkil:** ______________________________________ *(Vəkillik vəsiqəsi № _______)*

**Hüquqi yardım göstərilən şəxs:** ____________________________________________________

**Vəkilə həvalə edilən tapşırığın mahiyyəti:** ______________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________

**Tapşırığın yerinə yetirilməsi nəzərdə tutulan orqan, təşkilat:** ________________________________
____________________________________________________________________________

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Vəkil qurumunun rəhbəri ______________________ imzaladı – tarix,
Vəkil ____________________________________ imzaladı – tarix,
**Vəkil qurumunun adı:** ______________________________
**Sənədin elektron yüklənmə ünvanı:**
https://www.

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş “Vəkil orderi və Order Markası haqqında” Əsasnaməyə

Əlavə 3

**Order Markasının forması**

Order Markasının eni 4 sm, hündürlüyü 2,5 sm-dir.



Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş “Vəkil orderi və Order Markası haqqında” Əsasnaməyə

Əlavə 4

Order Markalarının təhvil verilməsinin uçot jurnalı

| № | Order Markasının sayı | Təhvil verilən Order Markasının | | Sənədi təhvil verən şəxs | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| | | Başlanğıc № | Son № | Soyadı, adı,atasının adı, tutduğu vəzifə | Tarix | İmza | |
| | | | | | | | |

Jurnalın sol tərəf hissəsi

| Sənədi təhvil alan şəxs | | | | | Təhvil alınmış markaların sayı | Ödənilmiş məbləğ |
|---|---|---|---|---|---|---|
| Soyadı, adı, atasının adı | Vəkil Qurumu | Vəkil vəsiqəsi № | Etibarnamə № və tarix | İmza | | |
| | | | | | | |

Jurnalın sağ tərəf hissəsi

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş“Vəkil orderi və Order Markası haqqında” Əsasnaməyə

**Əlavə 5**

Order Markalarının qaytarılması barədə
AKT №

______şəhər (rayon) "______"______20_____il

Bu akt aşağıdakı cədvəldə göstərilən sayda Order Markası məhv edilməsi üçün Rəyasət Heyətinə qaytarılmasını təsdiq etmək üçün tərtib edilir.

| № | Qaytarılma səbəbi | Qaytarılan Order Markasının sayı |
|---|---|---|
| | | |
| | Cəmi: | |

Qaytarılmış Order Markası (ları) və Order Markalarının siyahısı akta əlavə olunur.

Təhvil verdim:

________________________________________ ___________________ ______________________

(Vəkil Qurumunun adı, Fərdi vəkil olduqda qeyd olunmalı) (İmza) (soyad, ad, ata adı)

Təhvil aldım:

________________________________________ ___________________ ______________________

(Vəzifəsi) (İmza) (soyad, ad, ata adı)

________________________________________ ___________________ ______________________

(Vəzifəsi) (İmza) (soyad, ad, ata adı)